Kredo 2020.- 18 iyun.- S.16.

# “KREDO” YOLU

Salam, əziz kredoçular! “Kredo” qəzetinin 1000-ci sayını xoş gördük.

Burada olduğum müddətdə çox jurnalist və yazarlar - Elçin Kamal, Qulu Məhərrəmli, İsmayıl Kazımov, ilk poliqrafçı alim Şəddad Cəfərov, Elçin Mehrəliyev, Əkbər Qoşalı, Təyyar Salamoğlu, Mahmud Allahmanlı, Avdı Qoşqar, Şəfəq Nasir, Nəzirməmməd Zöhrablı, gənc, istedadlı yazar Sevindik Nəsiboğlu, Alur Cəbrayılzadə və digərlərini tanıdım. Bir çox hekayətlərə qulaq asdım; daha çox Əli Rza Xələfli və Elçin Kamalın “Yol əhvalatları” mənə maraqlıgəldi. Ən əsası gözəl kollektiv - Əli Rza Xələfli, Şəhla xanım, Şakir Albalıyev, Həsən Cəmilli, Hədiyyə xanım... Bəlkə də, gözəl kollektiv və iş yeri insanın həyata baxış tərzini dəyişir, özü də yaxşı mənada...

Qəzet, 1999cu il oktyabrın 1-dən oxucularıyla bərabərdir. 21-ci ilini başa varmaqdadır. 20 ildən çox oxucularıyla bərabər addımlayan bu qəzet çox ağır və məşəqqətli günlərdən keçərək günümüzə gəlib çatıb. Çağdaş Azərbaycan ədəbi-tarixi mühitində “Kredo” böyük nüfuza malik olan müstəqil ictimai-siyasi, ədəbi-publisistik qəzet olduğu kimi, həm də tarixi qəzetdir. Povest və hekalər, “Çaldırana gedən yol”, “Vəkilovlar” və digər əsərlərlə yadda qalacaq. Bu, həm tarixi, həm də ədəbi və əbədi haldır. Belə düşünürəm ki, Həsən bəy Zərdabinin “Əkinçi” qəzeti ilə Əli Rza Xələflinin “Kredo” qəzetinin arasında güclü varislik əlaqəsi var. Çünki, adları fərqli olsa da mahiyyətcə ikisi də xalqa xidmət edir.

“Kredo” qəzetinin baş redaktoru Əli Rza Xələflinin işıq üzü görən 50-ə yaxın kitabı, onun haqqında yazılanlar - məqalə hekayə, esselər, poema-poeziya əsərlərindən də üstünü bir vətəndaş gücündə olan da elə bu qəzetdir - “Kredo”dur.

Həmişə söz, qələm və elm adamlarının görüş və ümid yeri olan bu qəzet baş redaktorun fədakarlığı hesabına bu gün də yazarlarla oxucular arasında körpü rolu oynayır... “Kredo” qəzeti də yaradıcıların yaratdıqları mənzərənin işıqlanmasıdır.

Əlbəttə, Ə.R.Xələflini fərqləndirən özünəməxsus xeyli keyfiyyət göstəriciləri də var. Bunu təsdiq etməkdən ötrü onun qəzet səhifələrini kompüterin yaddaşına birbaşa diktə ilə yazdırdıqlarının heç bir redaktəyə ehtiyacı olmadan mətnə getməsinin şahidi olmaq kifayətdir. Bəlkə də, elə bu, digər qəzetlərdən “Kredo” nu fərqləndirir. Amma məsələ təkcə bunda da deyil. Əli Rza Xələflinin sözü özündən, özü də sözündən irəli gəlir.

Onun özünü tanımaq üçün sözünü tanımaq kifayət edir: “Mərdlərə körpü oldum namərd də keçdi məndən”.

Bu qəzeti və redaktoru bəyənməyənlər də oldu. Yalan şərhlər verənlər də oldu. Hər yerin pisi-yaxşısı olduğu kimi, həsəd və qibtə aparanlar da oldu. Necə deyərlər, “elin gözü tərəzidir”. “Kredo”nu da həmçinin.

Allah Əli Rza müəllimə yüksək səviyyədə natiqlik istedadı və gözəl yaddaş da verib. Nədənsə həmişə mənə elə gəlib ki, Əli Rza Xələfli danışanda səsi boğazdan deyil, qəlbinin və ruhunun dərinliklərindən gəlir. Ordan gələn səslər isə tər-təmizdir, aydan aydın, günəşdən isti, sudan durudur. Çünki dünyaya cibinin və mədəsinin yox, ağlının, kamalın və ruhun gözü ilə baxanlar, elə ruhunun da dili ilə danışırlar. Ona görə ki, bu dil günahsızdır və pak olduğu üçün, həm də səmimidir. Ə.Xələfli sadəcə yaratmadığı, həm də adı ilə böyütdüyü “Kredo”-nu da həmişə bu dildə “danışdırıb”. ”Kredo” sözünün mənası isə, “əqidə və inam”dır. Mənə elə gəlir ki, bu da doğru yoldur.

Çətin günlərdə “Kredo”nu Humay ilahəsi qorusun köməyimizə çatsın deyəndə belə başa düşürəm ki, bu, “Kredo”nu sevən oxucularıdır.

Və belə düşünürəm ki, yuxarıda dediyim kimi, “Kredo” və Əli Rza Xələfli bir-birini tamamlayır. Bir almanın 2 yarısı, necə deyərlər “alma-almaya bənzər...”

Bəli, Əli Rza Xələflinin ədəbiyyat qəzeti hesab olunan “Kredo”su ilə birlikdə ədəbiyyata təmənnasız xidmət göstərib və bu gün də göstərməkdədir. Ona və rəhbərlik etdiyi Kredo qəzetimizin əməkdaşlarına, həmçinin onların timsalında “Kredo”ya bundan sonra da tutduğu bu, müqəddəs yolda uğurlar diləyir, uzun ömür arzulayıram.



***Zeyhun ZALLI***